# Bəstəkar haqqında düşüncələr

***Eşidəndə ki, zəmanəmizin görkəmli bəstəkarı Vasif Adıgözəlovun 70 yaşı tamam olur, istər – istəməz gözlərimin önündən özümü dərk etdiyim bütün həyatım keçdi. Mən musiqişünaslar ailəsində boya-başa çatmışam. Valideynlərimin Vasif müəllimin yaradıcılığına olan böyük sevgi və marağının şahidi olmuşam. O, zaman mənim 6 yaşım olardı. Anam «Qobustan» incəsənət toplusuna Vasif müəllim haqqında məqalə hazırlayırdı. Vasif Adıgözəlovun musiqisi bizim evdə demək olar ki, bütün günü səslənirdi. İlk dəfə olaraq Vasif Adıgözəlov adını anamdan eşitmişdim. İllər keçdikcə mən Vasif Adıgözəlov musiqisiylə demək olar ki, böyüyürdüm. Çünki gah anam, gah da atam mütəmadi olaraq, onun yaradıcılığına müraciət edir, məqalə, kitab yazırdılar. V.Adıgözəlovun əsərlərini dəfələrlə dinləməyimin , hesab edirəm ki, mənim məhz musiqiçi olmağımda, evimizdə səslənən başqa bəstəkarların əsərləri ilə yanaşı böyük rolu olub.***

Bakı Musiqi Akademiyasında oxuyarkən artıq mən özüm də V.Adıgözəlov yaradıcılığıyla maraqlanmağa başladım və bəstəkarın əsərlərinin niyə belə hər zaman insanı özünə cəlb etməsini, özüm üçün kəşf etdim. Çünki, onun əsərləri hər zaman öz xəlqiliyi və eyni zamanda müasirliyiylə diqqəti cəlb edib. Bu istər II, III simfoniyaları, «Mərhələlər» simfonik poeması, instrumental konsertləri, operaları və başqa əsərlərində özünü büruzə verir. Məsələn, bəstəkarın II simfoniyası müasir insanın problemlərinə, onun mübarizəsinə və bu mübarizədə qalib çıxmasına həsr olunmuşdur. Burada dərin lirizm, psixoloji incəliklər musiqinin mürəkkəb polifonik formalarıyla təqdim olunub. Eyni zamanda nikbin və təntənəli qələbə sədaları simfoniyanı bitirir.

Daha sonra hər bir bəstəkarın yaradıcılığında qələbə sayılan opera janrı, Cəlil Məmmədquluzadənin dahi «Ölülər» əsəri üzrə eyniadlı opera. Ədəbiyyatımızın klassik incisi olan bu əsəri musiqi dilində danışdırmaq heç də asan deyil. Lakin böyük bəstəkar bu işin öhdəsindən çox məharətlə gəlir. Operada səslənən ariyalar, recitativlər, xor nömrələri, orkestr nömrələri milli ifadə vasitələriylə, əsərin cərəyan etdiyi dövrün incəliklərini çatdırmağı bacarmışdı.

Çox sonra mən namizədlik dissertasiyasını yazdıqda Vasif Adıgözəlovun «Ölülər» operasına müraciət etmişdim. Millilik bu bəsəkarın qanında, yaradıcılığında hər zaman özünü büruzə verdiyi üçün, xalqımızın incisi olan meyxana janrının da ritmləri bu əsərdə eşidilir. Uzun müddət yasaq olan və buna görə də bəstəkarların çox az müraciət etdiyi meyxana janrının elementləri, xalqına hər zaman yaxın olan bəstəkarımızın yaradıcılığında öz inkişafını tapmışdır. Məsələn «Ölülər» operasında Şeyx Nəsrullahın partiyasında meyxana ruhlu epizodlar var. Daha sonra Vasif müəllimin gözəl əsərlərindən olan «Qəm karvanı» oratoriyasının dramatik zirvələrinin birində, xanəndə solistin ifasında məşhur el məsəli «İlanın ağına da lənət, qarasına da» meyxana janrında yazılmışdır. Bu əsərlərin klavirlərini tapmaq mümkün deyildi. Onları Vasif müəllim, özünün xüsusi kitabxanasından əlyazması şəkilində bizə vermişdi. Məncə Azərbaycan xalqının mədəniyyətinə son dərəcə gərəkli olan bu əsərlər, belə əlyazma şəklində qalmamalıdır.

Bəstəkarın yaradıcılığında xüsusi yeri olan 1971-ci ildə yazdığı «Mərhələlər» simfonik poemasıdır. Əsərin əsas ideyası insan və cəmiyyətdir. Burada fəlsəfi şəkildə, müasir həyatın keşməkeşləri göstərilmişdi. Əsər boyu yeni mərhələlər, yeni hisslər, həyəcanlar bir-birini əvəz edir. Bəstəkarın II simfoniyası, «Mərhələlər» simfonik poeması və III simfoniyası fəlsəfi fikirlər, insan və cəmiyyət problemlərini daha geniş surətdə şərh edir. Burada milli və müasirlik məfhumu daha qabarıq şəkildə çatdırılır. Belə ki, əsərin II hissəsi xalq rəqsi «Cəngi» ritmi əsasında yazılıb. Bu da bəstəkarın kökünə nə qədər bağlı olduğuna sübutdur.

Əsərlərindən söhbət açdıqda onun kantata və oratoriyalarından danışmaya bilmərəm. 1988-ci ilin yazında Azərbaycan Dövlət Filarmoniyasında Vasif Adıgözəlovun «Odlar Yurdu» oratoriyasının ilk ifası olmuşdur. Valideynlərimlə bərabər mən də bu konsertə gəlmişdim. Salonda xüsusi izdiham müşahidə olunurdu. Dinləyicilər elə bil nə isə bir musiqi bayramı gözləyirdilər və yanılmadılar. Elə ilk akkordlardan musiqinin monumentallığı, rəşadəti, epikliyi dinləyiciləri valeh etdi. Bu əsərdə xalqımızın qəhrəmanlığı, ağrısı və acısı, analarımızın laylası, oğullarımızın mərdliyi çox böyük məharətlə təsvir edilib. Oratoriyanın sözləri şair Rəfiq Zəka Xəndanındır. Bu əsərlərdə söz və musiqinin vəhdəti, ən yüksək anlamında öz həllini tapıb. «Odlar Yurdu» oratoriyasına görə bəstəkar Azərbaycan Dövlət mükafatına layiq görülüb.



1989-cu ildə xalqımızın çətin günlərində, düşmənlərin Azərbaycan torpaqlarına basqın etdiyi zaman, bəstəkar yenə olanlara biganə qala bilmir və özünün etiraz səsini ucaldaraq «Qarabağ şikəstəsi» oratoriyasını yazır. Oratoriya xalqı birliyə çağırır və insanda yüksək patriotik hisslər yaradır. Daha sonra yaranan və yenə Azərbaycan xalqının başına gələn müsibətlərə həsr olunmuş «Qəm karvanı» oratoriyası bir daha bəstəkarın xalqına olan məhəbbətinin, kədərinə və sevgisinə şərik olma qabiliyyətinin, əsl Azərbaycan oğlu olmasının sübutudur. Onu da deyim ki, əgər bu oratoriyaları bir kənara qoyub elə bəstəkarın Qarabağ nisgilini əks etdirməyə təkcə bir «Lay-lay Şuşam, lay-lay» mahnısı bəs edərdi.

Bu oratoriyalardan fərqli olaraq bəstəkarın «Çanaqqala» oratoriyası türk xalqının azadlığı uğrunda apardığı mübarizəni təsvir edən tarixi monumental əsərdir. Türk hökumətinin, onlar üçün müqəddəs olan, Atatürk mövzusunun məhz V.Adıgözəlova həvalə olunması, bu bəstəkarın yaradıcılığına olan böyük qiymətidir. Və nəhayət patriotik, vətənpərvər mövzuların davamı və şah əsəri olan «Natəvan» operası bəstəkar yaradıcılığının başucalığıdır.

Onu da xüsusiylə qeyd etmək lazımdır ki, bu əsərlərin araya-ərsəyə gəlməsində istedadlı dirijor Yalçın Adıgözəlovun da böyük payı var. Məhz iki gözəl sənətkarın, ata-oğulun yaradıcılıq əlaqəsi, əsərlərin tam-dolğun interpretasiyası, dinləyici üçün gözəl ərmağandır.

Yazdığım bu məqalədə məqsədim böyük bəstəkarın yaradıcılığını təhlil etmək deyildir. Vasif müəllimin əsərlərinin böyük qisminin adlarını belə çəkməmişəm. Bəstəkarın yaradcılığından bir çox istedadlı musiqişünaslar çox saylı məqalələr, kitablar, namizədlik və hətta doktorluq işləri yazıblar. Məqsədim, V.Adıgözəlovun yaradıcılığının şəxsən mənə və mənim kimi gənc musiqişünaslara göstərdiyi təsiri, milli musiqimizdə aşıladığı sevgini açıqlamaqdır. Vasif müəllimin qanından-canından gələn vətənə sevgi, torpağa məhəbbət hissi əsərləri vasitəsiylə dinləyicilərə keçir. Bu da təsadüfi deyil. Sənətdə Qara Qarayevin, həyatda Zülfü Adıgözəlovun övladı olan bəstəkar başqa cür ola bilməzdi.

***Aytac Elxanqızı,***
***sənətşünaslıq namizədi***